# Bütün bölgələrimiz qardaş ölkə üçün səfərbərdir

## Sumqayıt






Türkiyə Respublikasında baş vermiş zəlzələ nəticəsində zərərçəkənlərə kömək məqsədilə fevralın 16-da Sumqayıt şəhərindən qardaş ölkəyə növbəti humanitar yardım yola salınıb. AZƏRTAC xəbər verir ki, şəhər icra hakimiyyəti başçısının birinci müavini Teymur Səmədov bir neçə gün bundan əvvəl modul tipli 5 ədəd konteyner evin və 230 min manatlıq yardımın qardaş ölkəyə yola salındığını bildirib. O deyib ki, bugünkü yardıma isə hər birində 8-10 nəfərin müvəqqəti yaşaması üçün nəzərdə tutulan daha 4 konteyner ev, 175 min manat dəyərində 31 ton müxtəlif məhsul daxildir. Növbəti günlərdə modul tipli 14 konteyner evdən və 380 min manat dəyərində müxtəlif məhsullardan ibarət yardımın göndərilməsi nəzərdə tutulur.

## Tovuz






Tovuzun Əyyublu kəndi rayonun böyük yaşayış məntəqələrindən biridir. Son illər burada aparılan abadlıq və yenidənqurma işləri sakinlərin həyat tərzini xeyli yüksəltmişdir. Əsas peşələri əkinçilik və maldarlıq olan kənd sakinləri hər il öz halal əməkləri ilə bol kənd təsərrüfatı məhsulları istehsal edirlər.

Əyyublulular xeyriyyə işlərində də nümunə göstərirlər. Bu məqsədlə onlar "Vətən" adlı xeyriyyə cəmiyyəti və "Xeyriyyə" fondu yaratmışlar.

Fevralın 6-da qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələni Əyyublu sakinləri də ürək ağrısı ilə qarşıladılar. Uşaqdan böyüyə hamı təbii fəlakət nəticəsində zərər çəkmiş insanlara kömək etmək üçün xeyriyyə cəmiyyətlərinə vəsait ödəyərək qardaş türk xalqına maddi dəstək göstərdilər.

Kənd icra nümayəndəsi Məhərrəm Qasımov deyir ki, zəlzələ baş verən andan kənddə humanitar yardım məntəqəsi, həmçinin zəlzələ zamanı həlak olanların xatirəsini anmaq üçün kəndin mərkəzində guşə yaradılmışdır: "Kənd sakinləri hər gün bu guşəyə gələrək həlak olanların ruhuna dualar oxuyur, yaralananlara Allahdan şəfa diləyirlər. Bundan başqa, kəndimizin camaatı zəlzələdən ziyan çəkmiş qardaş- bacılarımız üçün çoxlu sayda isti paltar, yataq ləvazimatları, əlcəklər, eləcə də bəzi məişət avadanlıqları gətirərək, məntəqəyə təhvil verdilər. Belə ağır zamanda maddi dəstək göstərmək üçün pul vəsaiti də toplandı. Qısa vaxt ərzində "Vətən" xeyriyyə cəmiyyətinə 9100, Əyyublu "Xeyriyyə" fonduna isə 1320 manat pul yığıldı və həmin vəsait Türkiyədə zəlzələdən zərər çəkmiş insanlar üçün açılmış bank hesabına köçürüldü. Humanitar yardım mərkəzinə toplanmış iki maşın məişət əşyaları isə Türkiyəyə göndərilməsi üçün qardaş ölkənin Gəncədəki Baş konsulluğuna təhvil verildi".

Kənd ağsaqqalları Mübariz Hüseynov və Abbas Abbasov bütün bu işlərə özləri nəzarət edirlər. Söhbət zamanı dedilər ki, bu, bizim qardaşlıq borcumuzdur. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, biz bir millət, iki dövlətik. Ona görə də həm xoş gündə, həm də çətin gündə bir-birimizə dayaq olmalıyıq.

## Samux






Samux rayonunun sakinləri də Türkiyədə zəlzələdən ziyan çəkənlərə humanitar yardım kampaniyasına qoşularaq bu ağır günlərdə qardaş türk xalqının yanında olduqlarını nümayiş etdirirlər.

Türkiyədə baş verən dağıdıcı zəlzələdən zərər görmüş insanlara yardım məqsədilə Samux rayonunda da humanitar aksiyalara başlanmışdır. Fəlakətin baş verdiyi ilk gündən yardım toplamaq aksiyası davam edir. İsti paltar, yataq ləvazimatları, eləcə də gec xarab olan qidalarla yüklənmiş bir yük maşını artıq Türkiyəyə yola salınmışdır.




***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 17 fevral.- S.4.